

***Noyabrın 8-də qədim Şuşa şəhəri Azərbaycan hərbçilərinin böyük qəhrəmanlığı, peşəkarlığı, milli ruhu sayəsində işğaldan azad edilib. Düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Şuşanın fəthi hərb tariximizin ən şərəfli döyüşüdür

***Ulu Tanrının xalqımıza ən qiymətli töhfələrindən olan Şuşanı babalarımız bu nadir təbiət gözəlinin hüsnünə layiq şəkildə tikib-qurmuşlar. Təbiət qalasını insan əlləri ikiqat möhkəmləndirib, alınmaz istehkama çevirib. Buna görə də Azərbaycanda çox qalalar olmasına baxmayaraq, ötənlərdə xalqımız yalnız bu şəhəri nəvazişlə “Qala” adlandırıb.***

Azərbaycanın sonuncu feodal dövləti kimi yaranan Qarabağ xanlığının paytaxtı Pənahabad–Şuşa məhz bu alınmazlığı, möhtəşəmliyi ilə hərbi-siyasi dartışmaların qoynunda çeynənən ölkəmizdə yeganə əmin-amanlıq adası kimi tanınıb. Buna görə də Dərbənddən Həmədana qədər hər yerdə dincliyi pozulmuş azad ruhlu insanlar, sakitlik axtaran ziyalılar və sənətkarlar bu qalaya ilk onilliklərdə bu şəhəri salmış Pənahəli xanın adı ilə tanınan Pənahabada pənah gətirmişlər. Bununla da qala-şəhər daha gözəl, güclü və sevimli bir məkana çevrilib.

Azərbaycan torpaqlarının ikiyə bölünməsinin, məmləkətin quzeyinin rus işğalına düşüb tarixi bəlalara düçar olmasının da faciələrini daha çox bu şəhər və onun mərkəzi olduğu Qarabağ yaşayıb. Rusiya imperiyası Arazın bu tayında türk-müsəlman varlığının mütləqliyini yox etmək üçün neçə məmləkətdən keçib, İranda və Anadoluda bənd almış qaraçıxislət xristian erməniləri məhz Qarabağa və onun mərkəzi Şuşaya yerləşdirmişdi.

Şəhərin mövcudluğunun ilk yarım əsrində bir nəfər də erməninin olmadığı bu şəhərdə həmin siyasətin nəticəsi olaraq, xəyanətkar gəlmə xalq özünə yer edəndən az sonra Şuşanın “qədim erməni şəhəri” olmasından dəm vurmuşdular. Ötən əsrin əvvəllərində Qafqazdakı etnik ermənilər irticaçı daşnak ideologiyasına bürünüb, xaricdən dəstək alıb bu şəhərin də türk-müsəlman əhalisini yer üzündən silmək istəyəndə qarabağlılar haqdan və qeyrətlərindən güc alıb onları layiqincə dəf etmişdilər.

Çar imperiyasını sovet imperiyası ilə təzələyən bolşevik başkəsənlər bir az da irəli gedib Azərbaycanın mərkəzi Qarabağ vilayətini iki yerə böldülər, onun dağlıq hissəsində saxta yolla “erməni muxtariyyəti” yaratdılar. 70 ildə bu muxtariyyətin əsas hədəfi vilayəti erməniləşdirmək və yerli əhalini buradan sıxışdırıb çıxarmaq olmuşdu. Nəticədə, əsrin əvvəllərində 100 mindən çox əhalisi olan Şuşa şəhərində cəmi 10 min əhali qalmışdı. Bununla da hesablaşmayan erməni və ermənipərəst dairələr şəhərdəki 2 min erməninin mütləqləşdirib açıq-gizli şəkildə Şuşanın “qədim erməni şəhəri” olması mifini körükləmişdilər.



30 il əvvəl sovet imperiyasını “yeni velikorus” imperiyasının əvəz etməsi isə nəinki Şuşanın və “muxtarlaşdırılmış Qarabağ”ın, eləcə də bütün Qarabağın Ermənistan tərəfindən işğal edilməsi ilə nəticələnmişdi. O vaxt 3 milyonluq Ermənistanın 7 milyonluq Azərbaycanın ərazisinin 20 faizini hərbi yolla ələ keçirməsi ölkəmizdəki hərc-mərclik və başıpozuqluğun Qarabağın lazımi səviyyədə müdafiəsini pozması və “xaç qardaşları”nın xəyanətkar topluma güclü dəstək verməsi nəticəsində mümkün olmuşdu.

Azərbaycana bu “səlib” basqısının nəticəsi olaraq Qarabağ 30 il işğal altında qaldı. Lakin ümummilli lider Heydər Əliyevin zəkası və qüdrətinə qovuşmaqla xalqımız bir an da bu işğalla barışmadı, “Ya Qarabağ, ya ölüm” hayqırtısına tapındı. Ulu öndərin “Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur” qənaəti sonrakı 27 ildə uşaqlı-böyüklü bütün xalqımızın duyğu-düşüncələrinə hakim kəsildi. Yeni doğulan uşaqlar da tarixdən gələn “Yaddan çıxmaz Qarabağ” yanğısı ilə böyüyüb tərbiyələndi.

Ulu öndərin müstəsna liderliyini davam etdirən Prezident İlham Əliyev son 17 ildə adi bir kənddən tutmuş BMT Baş Məclisinin tribunasınadək hər yerdə bəyan etdi: “Biz Azərbaycan torpaqları hesabına ikinci bir erməni dövləti yaratmağa qətiyyən imkan verməyəcəyik”. Bu amalla da ölkəmizdə bütün güc və imkanlar Qarabağın işğaldan azad edilməsinə yönləndirildi.

2016-cı ilin Aprel döyüşlərində düşmənə sarsıdıcı zərbə vurmaqla sərgilənən hərbi qüdrətimiz Qarabağın dinc yolla geri qaytarılması üçün son ciddi xəbərdarlıq oldu. O zaman Prezident, Ali Baş Komandan İlham Əliyev qətiyyətlə bəyan etdi: “Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bütün amillər– güclərin nisbəti, beynəlxalq, iqtisadi-hərbi amillər bunu göstərir. Sadəcə olaraq, vaxt gedir. Sadəcə olaraq, biz istəyirik ki, bu, tezliklə olsun. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir, Şuşada, Xankəndidə Azərbaycanın dövlət bayrağı qaldırılmalıdır və gələcəkdə azərbaycanlılar bütün tarixi torpaqlarında yaşamalıdırlar”.



Lakin düşmənin qonşuya nifrət zəhəri ilə pozulmuş ağlı bundan nəticə çıxarmağa, indiki ağrılı məğlubiyyəti təsəvvür etməyə imkan vermədi. Nəticədə, ötən ilin 27 sentyabrında düşmənin çilovsuz hədyanlarına cavab olaraq, başladığımız müqəddəs Vətən müharibəsi ilk günlərdən işğalçı qüvvələrin darmadağın edilib geri oturdulması ilə davam etdi. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Laçının bir hissəsi azad edildikdən sonra növbəti hədəf Şuşa və Xankəndi oldu.

Azərbaycan komandanlığı Şuşanı müasir döyüş vasitələri ilə çox asanlıqla fəth edə bilərdi. Lakin hər daşı, hər salamat qalmış tikilisi xalqımız üçün əziz və qiymətli olan Şuşanı dağıntısız ələ keçirmək üçün mükəmməl hazırlanmış əlbəyaxa döyüş yolu seçildi. Hadrutdan başlayıb keçilməz meşələrin, hündür dağların piyada, ağır səhra yükü ilə aşılan hərbi yürüş noyabrın ilk günlərində Şuşa ətrafında möhkəmlənməklə nəticələndi.

Sonrakı 2 gündə sıldırım qayalardan dırmaşıb şəhərə daxil olan igid oğullarımız düşmənin ağır texnika ilə göstərdiyi müqaviməti adi silahlarla dəf edib quldurları şəhərdən Laçın və Xankəndi istiqamətinə qovdu. Şuşanın alınması düşmənin sonuncu müqavimətinin qırılması oldu. Bu sarsıdıcı zərbənin hərbi, siyasi və mənəvi təsiri işğalçı Ermənistanı qaçılmaz məğlubiyyətlə üzbəüz qoydu.

Şuşa döyüşlərinin getdiyi vaxtda Xankəndidə olan xarici jurnalistlərdən biri ermənilərin düşdüyü acınacaqlı vəziyyəti belə təsvir edirdi: “Şuşanı müdafiə edənlər pərən-pərən düşüblər. Hərbi təcili yardım maşınlarında onlarla yaralı qan içində Xankəndi xəstəxanasına daşınır. Qalan döyüşçülər yorğun halda yolboyu hərbi geyimlərini çıxarıb ataraq dağdan enirlər. Təcili yardım maşınları aramsız olaraq gedib-gəlir. Avtomobildə yaralı əsgərlər bir-birinin üstünə qalaqlanıb. Onların aldığı xəsarətlər əlbəyaxa döyüşlər getdiyinin sübutudur”. “Le Monde” nəşrinin həmin günlərdə yaydığı reportajda isə deyilirdi ki, Ermənistan ordusunun məğlubiyyətə uğradılmış hərbçiləri yaralı halda Şuşanı tərk edərək Xankəndiyə qaçırlar”.

Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də gündüz saatlarında gizli hazırlanmış və məharətlə gerçəkləşdirilmiş Şuşa əməliyyatının uğurlu sonluğu barədə sevincli xəbəri xalqımıza çatdırdı. Dövlət başçısının “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtdıq!” müjdəsi xalqımızın 28 illik ağrılı həsrətinə son qoymaqla yanaşı, artıq düşmənin belinin sındırılıb onun diz çökdürülməsini də dünyaya bəyan edirdi. Bəli, Şuşa Qarabağın tacı olduğu kimi, onun ələ keçirilməsi də Qarabağ uğrunda mübarizənin finişi kimi qəbul edildi.

Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etdilər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırdılar. Şuşa zəfəri, öz hərbi-siyasi önəmi ilə müharibənin taleyini həll etdi. Ertəsi gün 70-dən çox kəndin azad olunması xəbəri gəldi və bundan bir gün sonra düşmənlərin başçısı Nikol Paşinyan Azərbaycan Prezidentinin şərtlərini qəbul edərək kapitulyasiya aktına imza atmağa məcbur oldu. Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Bəyanata əsasən, noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları bir güllə atılmadan, heç bir şəhid verilmədən azad edildi.

Şuşanın işğaldan azad edilməsi barədə ölkəmizdə və beynəlxalq aləmdə səslənən mötəbər mülahizələr deməyə imkan verir ki, xalqımızın ən qeyrətli oğullarının hünəri ilə baş tutmuş bu nadir hərbi əməliyyat dünya tarixində əbədi qalacaq. ABŞ-ın Müasir Müharibə İnstitutunun şəhər müharibəsi araşdırmalarının rəhbəri Con Spenser və onun həmmüəllifi Harşana Qurhu “Şuşa uğrunda döyüş və 2020-ci il Dağlıq Qarabağ müharibəsinin qaçırılan dərsləri” adlı tədqiqatlarında haqlı olaraq bildiriblər: “Şuşanın azad edilməsi Azərbaycan üçün böyük bir strateji qələbə idi və nəticədə, müharibənin taleyi həll etdi. Sadə dillə desək, quru qüvvələrindən ərazini ələ keçirmək və saxlamaq üçün bir çox başqa bacarıq tələb edirdi. Şuşa uğrunda gedən döyüş də göstərir ki, qələbə üçün geniş təsəvvür və müharibə oyunlarını da əhatə edən müdafiə planlarına sahib olmaq lazımdır”.

1992-ci il 8 mayda itirdiyimiz Şuşa 28 il sonra 2020-ci il 8 noyabrda Ali Baş Komandanın rəhbərliyi ilə geri qaytarıldı. Azərbaycanın 28 illik Şuşa yarası sağaldı. Azərbaycanın çoxillik həsrətinə son qoyuldu və xalqımızın tarixi-mədəni irsində xüsusi yeri olan Şuşa geri qaytarıldı. Azərbaycan xalqı tarix boyu bu qədər sevinc, qürur yaşamamışdı. Beləliklə, Azərbaycanın qədim şəhərinin işğaldan azad edilməsi ilə həlledici üstünlüyə nail olundu. Bu, Vətən müharibəsində mütləq qələbə demək idi. Şuşanın azad edilməsi Azərbaycan tarixinin ən şanlı qələbəsi oldu. Şuşaya bayrağımızın sancıldığı 2020-ci ilin 8 noyabr günü Azərbaycan tarixinə əbədi həkk olundu. Nəinki hərbi ekspertlərin, elə ermənilərin özlərinin də dediyi kimi, “kim Şuşaya nəzarət edirsə, Qarabağa da o nəzarət edir”.

Qələbədən sonrakı dövrdə – yanvarın 14-də Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdıqdan sonra hərbçilərlə görüşdə çıxış edərkən dedi: “Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib”.

Prezident İlham Əliyev Şuşanın azad edildiyi tarixi ölkəmizdə Zəfər Günü elan etdi. Bir il sonra Şuşada keçirilən qələbə təntənəsində isə dövlətimizin başçısı bildirdi: “Bu gün biz Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edirik. Bütün Azərbaycan bu şanlı bayramı qeyd edir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi. Biz düşməni doğma torpaqlarımızdan qovaraq tarixi missiyamızı yerinə yetirdik. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini məhv edərək, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı.

Qarabağ zəfərinin baş memarı və icraçısı olan Ali Baş Komandanın dediyi kimi, 8 Noyabr artıq bir ildir ki, adi tarix deyil: “Bu Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir”.

***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***